**UOT 39**
**https://doi.org/10.59849/2218-4783.2025.1.94**

**ASƏF ORUCOV**

# QURBAN VERMƏ ADƏTİ: QANLI VƏ QANSIZ QURBANLAR (Naxçıvan materialları əsasında)

*Məqalədə qurban kəsmək, qurbanvermə adətinin, ənənəsinin, onunla bağlı inanclar sisteminin necə yarandığı, nə zaman yarandığı araşdırılmışdır. Tədqiqat nəticəsində iki növ qurbanın olduğuna şahidi oluruq. Bunlar qanlı və qansız qurbanlardır. Deyə bilərik ki, qurbanın hər iki formasına Naxçıvan diyarında rastlanmışdır.*

*Araşdırma nəticəsində Qurbanvermə adətinə İslamdan çox-çox əvvəl rast gəlindiyinə şahid oluruq. Qədim türklər pis, bədxah ruhlardan qorunmaq, ilahi varlıqlarla yaxınlıq əldə etmək məqsədilə qurbanlar kəsərdilər. Qanlı qurban əsasən at olardı. Atın qurban verilməsi adəti dünyanın bir sıra xalqlarında geniş yayılmışdır. Sonrakı dövrlərdə qurban olaraq əsasən qoç kəsilərdi.*

*Qansız qurbanlardan şərab, süd, çörək və s. olmuşdur. Günümüzdə isə qansız qurbanlardan pulu xüsusilə qeyd edə bilərik. Həmçinin, əcdad ruhuna yemək vermək də bütün dünya mədəniyyətlərində qurban vermə adlanır.*

**Açar sözlər:** *Naxçıvan, ehsan, qurban, at, qansız, bayram.*

Qurban kəsmək ayini islamdan çox-çox əvvəllər ibtidai insanların icra etdiyi tədbirlərdən biridir. Qədimdə insanlar amansız kortəbii qüvvələri mərhəmətə gətirmək, sitayiş etdikləri ruhların xoşuna gəlmək üçün yedikləri qidanın, etdikləri ovun bir hissəsini qurban verirdilər. Qurban verdikdən sonra isə insanlar elə bil rahatlıq tapırdılar.

Qurban sözünün mənşəyinin əslində ibranicə “Korbon” sözünə əsaslandığını və onun ərəb dilinə arameycədən keçdiyini bildirilir. Ərəb dilində işlənən “krb” kökündən gələn qurban sözü “yaxınlıq, qohumluq” mənasını verir. İslamdan öncə türklərin isə tarixi proseslərdə qurban sözünün yerinə hansı sözü işlətdikləri hələ də aydın deyil. Mahmud Kaşğari “Divanü Lügat-it türk” adlı əsərində qurban sözünü “yagış” kimi qeyd etmişdir. Vilhelm Radloff qurban sözünü “taylga” kimi ifadə etmişdir. Emel Esin qurban sözünü “tapığ” kimi ifadə etmişdir. Mehmet Eröz, Orta Asiya türklərində qurban ifadəsini “tolu” və ya “dolu” kimi ifadə edir. Başqa bir ifadəni Jan Pol Ru irəli sürdü. Bu ifadəni “Allaha təqdim etmək, həsr etmək və qurban vermək” mənasını verən “təlkə” sözü olduğunu qeyd etmişdir [11, s. 139].

Bəs dinlərdə qurban anlayışı necədir? Aparılan araşdırmalardan aydın olur ki, bu dinlərdə yəhudilik, xristianlıq və islamda qurban anlayışı öz varlığını qoruyub saxlamış, bəzi xüsusiyyətlərinə görə bir-birindən fərqlənsə də mahiyyət etibarı ilə eyni olmuşdur. Aparılan araşdırmalardan aydın olur ki, qədim türklərdə qurbanlar əsasən qanlı və qansız olaraq iki yerə bölünür. Qansız qurban: buğda, süd, yağ, çörək, şərab və s. qeyd edə bilərik. Altay və Sibirdə yaşayan türklərin dini inanclarını araşdıran tədqiqatçı Anohin yazır ki, türklərdə qansız qurbanlar təzə şərab, yazda keçilərdən alınan ilk təmiz süd, bir ovuc təzə çay, çörəkdən hazırlanan saba adlı içki və s. İslamdan öncə qədim türklərdə ağaclara “saçı” və “yalama” adı ilə parça, bez bağlamaq adəti də qansız qurban vermə adətinə uyğun olmuşdur. Bu adət bu günün özündə belə Naxçıvanda yaşamaqdadır. İslamdan öncə iranlılar haoma içkisi olaraq qansız qurban verərmişlər [14]. Bir məsələni vurğulamaq istəyirəm ki, haoma içkisi səmənidən alınan içki olaraq bilinməkdədir. Ötən əsrin sonlarına yaxın Naxçıvanda bir çox bölgələrdə, xüsusən Ordubad bölgəsində bu içkini hazırlayırdılar.

Araşdırmaçılar yazırlar ki, hititlərin tanrılara təqdim etdikləri qurbanlar arasında çörək, müxtəlif yeməklər, yağ, bal, meyvə və şərab kimi müxtəlif taamlar var idi. Tanrıların bunlarla qidalandığına inanılırdı. Hititlər bu yeyəcəkləri tanrılara çatdırmaq üçün müxtəlif üsullardan istifadə edirdilər. Evlərinin qarşısına yol çəkdirir, bu yola bal, yağ kimi xoş qidalar qoyur, ətirli bitkilər yandırırdılar. Beləcə insanlar inanırdılar ki, tanrılar gəlib bunlardan qidalanırdılar. Xristiyan olan bəzi etnoslar arasında Tanrıya yağ verilməsi adəti günümüzdə belə mövcuddur [13, s. 159].

Aparılan araşdırmalara görə Naxçıvanda ağac kultu ilə bağlı bəzi müqəddəs hesab edilən ağaclara müəyyən əski, bez bağlandığına rast gəlirik ki, bu da qansız qurbanlar siyahısına daxildir. Bundan əlavə topladığımız etnoqrafik çöl materiallarına görə yaylaq-qışlaq maldarlığı ilə məşğul olan etnosların bəziləri yaylağa qalxan zaman yaylaqda heyvanlardan sağdıqları ilk südü otların üzərinə, dağların yamaclarına səpər, ot əyəsinə, dağ ruhuna qurban verərdilər.

Günümüzdə demək olar ki, Naxçıvanın hər bölgəsində mərhum dünyasını dəyişəndə halva bişirib paylayar, eyni zamanda həmin halvadan bir az da qəbir üstünə aparıb, qəbrin üzərinə qoyarlar. Bunun özü belə qansız qurbanlar siyahısına aid edilir. Əcdad ruhuna yemək vermək bütün dünya mədəniyyətlərində qurban vermə adlanır. Bu gün nəzir olaraq pulun verilməsinin özü belə qansız qurban olaraq bilinməlidir. Yaxud da Naxçıvanda qədim dövrdən günümüzədək mövcud olan bir adət vardır: belə ki, yeni ev tikilən zamanı evin bünövrəsinə pul atırlar ki, bu da qansız qurbanlar siyahısına daxildir.

**Qanlı qurban**. İslamdan öncə türklər qanlı qurbanı Gök-Tanrıya kəsmişdilər. Türklərdə əski zamanlarda kəsilən qanlı qurban at, sonra isə qoç olmuşdur. Türk araşdırmaçı alim İ.Kafesoğlu yazır ki, Asiya hunları Tanhu sarayında, ilin ilk ayında və erkən yazda (5-ci ay) Göy Tanrıya, əcdadlara və təbii qüvvələrə at və qoyun qurban verirdilər [12, s. 182].

Qədim türklər yerləri yaman, bədxah ruhlardan qorumaq, ilahi varlıqlarla yaxınlıq əldə etmək məqsədilə qurbanlar kəsərdilər. Atın qurban verilməsi adəti dünyanın bir sıra xalqlarında geniş yayılmışdır. Digər heyvanlardan da qurbanlıq kimi erkək heyvanlar üstün sayılmış, dişi heyvanlar isə qurban kəsilməmişdir. “Kitabi-Dədə Qorqud” dastanında qurbanlıq deyə atdan ayğır, qoyundan qoç, dəvədən buğra qurbanlığı göstərilir. Bir çox etnoqrafik tədqiqatlarda qurbanın meydana gəlməsi ölüləri ac qoymamaq, ruhların rəğbətini qazanmaq, onları rəhmə gətirmək adəti və s. ilə əlaqələndirilir”.

Təkcə heyvanlar yox, insanlarda məhz qurban olurdu. Bunu biz bir el deyimində də görürük.

Mən aşiqəm, can sənə,
Olmuşam qurban sənə,
Quzu qurbanı nədir,
Mən özüm qurban sənə [1, s. 115].

Qədim Azərbaycanda insan qurbanı verilməsi adəti haqda da Strabonda məlumat vardır. Bu məlumata əsasən, bir il müddətində xüsusi olaraq bəslənilən “müqəddəs qul” (hierodul) albanların müqəddəs Ay məbədindəki qurbangaha gətirilir; bədəninə ətirli yağ sürtülür və digər qurbanlıq heyvanlarla birlikdə qurban verilirdi [2, s. 72].

İslama qədər bir çox dinlərdə insanları qurban vermə ayinlərinə rast gəlmək mümkündür. Məsələn, atəşpərəstlər insanı odda yandırırdılar. Onlar bu yolla Allaha yaxın olduqlarını göstərərdilər. Qədim Çində də insanları tanrılara qurban vermək adəti var idi. Bu ölkədə təbii fəlakətlərdən, daşqınlardan hifz olunmaq üçün uşaqları suya atırdılar. Qurbanvermə adətilə bağlı olan bu və ya digər qaydalar və təsəvvürlər təsadüfən meydana gəlməmiş, ümumiyyətlə bu dini ayinin formalaşmasının özünəməxsus tarixi kökləri, qanunauyğunluqları vardır. Belə ki, İslam və digər monoteist dinlərdə icra olunan bu kimi ayinlər və mərasimlər daha çox qədim zamanlarda yaranmış və zaman-zaman öz məzmun və formasını dəyişmiş ibtidai dini təsəvvürlərdən, inanc sistemindən, dini etiqadlardan, ayinlərdən qaynaqlanmışdır [6, s. 375].

Fransız tədqiqatçısı Şarl Enşlen qeyd edirdi ki, qurban vermə adəti öz mənşəyini totemistik təsəvvürlərdən götürür. Belə ki qurban verilən heyvan vaxtı ilə totem olmuş, müqəddəsləşdirilmişlər [6, s. 376].

Qurbanlıq ət satılmaz. Qurban Allah rizası üçün kəsilir, imkansızların imkanlıların malından haqqıdır.

Qurban adətlərinə görə qurban kəsiləcək heyvan sağlam olmalı, heç bir şikəstliyi olmamalı idi. Adətən qurban kəsiləcək heyvan əvvəlcə seçilib bəslənilər. İslami qaydaya görə, əgər qurban

xırdabuynuzlu və erkəkdirsə yaş həddi 7 aylıqdan böyük olmalı, əgər qaramaldırsa bir ili tamam olub ikinci ilə keçməlidir, dəvədirsə mütləq 7-ci yaşa keçməsi vacib hesab olunur. Bundan əlavə qurbanlıq heyvan həm də hökmən eyibsiz, yəni kar, kor, buynuzu kəsik, yaralı olmamalı və sağlam olmalıdır. Bütün müsəlmanlar kimi bizim xalqımıza da əziz olan bu bayramda yalnız ev heyvanları: xırdabuynuzlu heyvanlar (qoç, qoyun, toğlu, keçi və s.), dana, dəvə, öküz və ya bu cinsdən olan heyvanlar kəsilir. Digər heyvanların və quşların qurban kəsilməsi islam dinində məqsədəuyğun hesab edilmirdi. Xalq şairi S.Vurğun öz şeirində qurban bayramından bəhs etmişdir.

Qurban bayramıydı, gülürdü dağlar,
Qonşumuz xınalı bir erkək kəsdi [9, s. 101].

**İslamda qurban.** Müqəddəs kitabımız "Qurani-Kərim"də buyurulur: "Biz hər bir ümmət üçün qurbangah (yaxud məbəd) müəyyən etdik (və ya hər bir ümmətə qurban kəsməyi lazım bildik ki, Allahın onlara ruzi verdiyi (dördayaqlı) heyvanların üstündə (onları kəsdikləri zaman) Allahın adını çəksinlər (bismillah desinlər)".

Dini Qurban kəsmə İbrahim Peyğəmbərin həyatında baş verən əhvalatdan sonra yaranmışdır. Müqəddəs kitabımız "Qurani-Kərim"də yazılır ki, İbrahim peyğəmbər Şama yetişdikdən sonra dua edib dedi: "Ey rəbbim! Mənə salehlərdən olan bir övlad bəxş et! Ulu tanrı ona həlim xasiyyətli bir oğlan uşağı İsmayılı müjdə verdi" [7, s. 363; 448].

Yuxuda Allah (s. s.) İbrahim peyğəmbərə oğlunu qurban verməyi (onların Allaha inamını yoxlamaq üçün ) əmr etmişdir. İbrahim əsl dindar kimi Allahın əmrini yerinə yetirməyə hazır olmuş, İsmayılın özü də qurban olmağa razılaşmışdır. Lakin, uca Allah bunu öz elçisinə rəva bilməmiş və qurbanlıq üçün ona bir qoç göndərmişdi. Elə bu anda səs gəlir ki, "Ya İbrahim! Artıq sən yuxuda düzgünlüyünü təsdiq etdin!" (Sənə yuxuda nə əmr olunmuşdursa, onu yerinə yetirdin. Allah sənə lütf edərək bir qoç kəsməyi buyurur)" [7, s. 449]. Buna görə də, bu bayramda kəsilən qurbana "İsmayıl qurbanı" da demişlər.

İbrahimin qoca yaşında Allah ona bir oğlan uşağı (İsmayılı) nəsib etmişdi. Çox sevdiyi balasını Allah yolunda qurban verməyə hazır olması peyğəmbərin Allah qarşısında imanının, səmimiliyinin və mütiliyinin bariz sübutudur. Odur ki, din tarixində dərin iz salmış bu hadisə Allaha inamın, dərin etiqadın nümunəsidir. Bu rəvayətin başqa bir fəlsəfi-əxlaqi mənası ondan ibarətdir ki, İslam dinində insanın Allah yolunda qurban kəsilməsi qəbul olunmur [5, s. 7].

İslam aləmində "Qurban bayramı" böyük bayram (eyd-əlkəbir) adlanır.

Qurbanlığın şərtlərindən bir də budur ki, qurban kəsmək yalnız buna imkanı olan varlı adamların boynunda haqdır. İmkanı olmayan adama isə qurban kəsmək vacib deyil. Qurban kəsmək üçün borc pula heyvan almaq İslamda təqdir olunmur. Tarix elmləri doktoru, dosent Emin Şıxəliyev yazır ki, Qurban bayramına gəlincə, bu bayram heyvanların kəsilməsi kimi bilinir və tətbiq olunur. Günümüzdə bu bayramın mahiyyəti kifayət qədər dərk olunmur və bir növ ət bayramına çevrilmişdir. Qurban bayramının İslama uyğun adı "yoxsula, imkansıza, yetimə yardım bayramı" olmalıdır [8, s. 130].

**Adət-ənənələrimizdə qurban.** Toplanmış etnoqrafik çöl materiallarına əsaslanaraq deyə bilərik ki, Naxçıvanda Qurban bayramı günü kəsilən heyvan axirətdə onu nəzir edib kəsən adamı belinə alıb Sirat körpüsündən keçirəcək. Qurbanlıq heyvanını kəsməmişdən qabaq bir sıra adət və inanc sisteminə əməl edirlər. Kənd yerlərində kəndin mollası bir kiloqram duz alıb ona qurban duası oxuyub evinə qoyar. Hər kəs (qurban kəsənlər) gedib ondan bir qaşıq tutanı duz alıb gətirər axşamdan evində hazır tutar. Sabah qurban kəsiləndə həmin duzu qurbanlıq heyvanın ağzına atıb sonra kəsərlər. Oxşar adətə Quba-Xaçmaz bölgəsində də rastlanmaqdadır [10, s. 150]. Qaydaya görə, qurban ətinin üç yerə bölünməsi vacib sayılmışdır və bu qaydaya Naxçıvan bölgəsində tam mənasında əməl olunmuş və indi də əməl olunmaqdadır.

T.Qədirzadə Naxçıvanda xalq arasından toplanmış materiallarına əsaslanaraq yazır ki, qurbanlıq heyvanın gözünü bağlamadan kəsmək günah sayılır. Qurbanlıq heyvanı kəsməmişdən qabaq ağzına bir tikə qənd qoyub çıxarırlar. Həmin qənddə müəyyən xəstəliklərdə (xüsusən göy öskü-

rəkdə) istifadə edərlər. Kəsilən heyvanın gözünün giləsini qurudub "nəzir ağacı" düzəldirlər. Onu qırmızı parçaya büküb ağaca asırlar. Deyirlər ki, ona baxmaq savab sayılır. Ona baxan adama nəzər dəyməz. Heyvanları da nəzərdən qorumaq üçün "nəzər ağacı"nın altından keçirirlər. Bəzi bölgələrdə qurbanlıq heyvanın qanından götürüb bar verməyən ağacların üzərinə vururlar ki, bol meyvə versin. Uşağı olmayan gəlinlərin çiləsini tökmək üçün qurbanlıq heyvanın qanından suya salıb, gəlini həmin su ilə barlı ağacın altında yuyundurardılar [4, s. 31]. İsmayıl qurbanını kəsməmişdən öncə onu kəsən adam yuyunmalı, təmiz olmalıdır. Onu da qeyd edək ki, bu gündə hamı təmiz olmalıdır. İnanca görə, insan bədənində bir tük var ki, həmin gün islanır. Qurbanı kəsən adam çalışar ki, gün çıxmamışdan qurbanı kəsib qurtarsın. İnama görə, qurbanlıq ətinin üzərinə gün düşməməlidir. Heyvan kəsilən zaman onun qanının axıb getməsi günah sayılırdı. Qan ya bir qaba tutulur, ya da bir çuxur qazılıb ora axıdılırdı. Qurbanlıq heyvanın sümükləri itə atılmazdı, onu qazıb basdırardılar və ya çaya axıdardılar. Onun sümüklərindən suya salıb qaşınma xəstəlik tutanları yuyundurardılar. Bir digər inama görə, qurbanlıq heyvanın tükündən güclü küləyin əsməsini dayandırmaq üçün yandırmaqda istifadə edərdilər. Qurbanlıq əti bu gündən sabaha saxlamazdılar. Hər kəs çalışardı ki, həmin günü evində qurbanlıq əti bişirsin. Ancaq, ət çox olardısa, ətin üzərinə mütləq duz səpilib sabaha saxlanılardı. Ötən əsrlərdə istər kənd yerlərində, istərsə də şəhərdə əhali çalışardı ki, saxladığı xırdabuynuzlu heyvanlardan qurban kəssin. Bu gün demək olar ki, fərd olaraq qurban kəsmək azalıbdır. İnsanlar qəssabxanalara axışır oradan özləri üçün ət alırlar. Bir də inama görə, qurban ətini tərəziyə qoyub çəkməzlər. Bu gün o adətə əməl edən yoxdur. Çünki, hər kəs qəssabdan ət aldığı üçün məcburən aldığı əti çəkdirməlidir.

Məlumatçıların verdiyi bilgiyə görə, Naxçıvan bölgəsində XX əsrin birinci yarısında Qurban bayramında qurban kəsilən heyvanın əti hər evdə bişirilib yeyildikdən sonra, sümükləri atılmazdı. Onlar yığılar əkin vaxtına qədər təmiz bir yerdə saxlanılardı və əkin vaxtı əkin sahələrinə səpərdilər ki, tarlanın məhsulu bol və bərəkətli olsun, ancaq bu adət Sovet dönəmində tədricən aradan çıxmışdır.

Qurban bayramı günü gəlinə və ya nişanlı qıza "qurban payı" aparmaq adəti geniş yayılmışdır. Mərhum etnoqraf alim H.Q.Qədirzadə yazırdı ki, "qurban payı" ailənin maddi vəziyyətindən çox asılı idi. Bəzən bir şaqqa (heyvanın bir tərəfi), bəzən də bir neçə kiloqram ət aparırdılar. İmkanlı ailələr isə bir buynuzlu qoçu bəzəyib qız evinə, gəlin evinə götürərdilər [3, s. 59]. Ordubad şəhərində nişanlı qızlara aparılan xonçaya "qurban tabağı" deyərlər.

Naxçıvanda qurbana 2-3 ay qalmış, at-qatır və dəvə ilə Məkkəyə gedər, Həcc əməllərini yerinə yetirərək ziyarətinin 10-cu günü Həcc əməllərindən biri olan qurbankəsmə əməlini də yerinə yetirərdilər. Toplanmış etnoqrafik materiallara görə, Naxçıvandan Məkkə şəhərinə Həcc ziyarətinə getmək çox çətin idi. Çünki, bu yol 2-3 aylıq piyada yol idi. XX əsrin əvvəllərinə qədər isə, Naxçıvanda maşınlı texnika yox dərəcəsində idi, həm də əhalinin yaşam tərzi də pis idi. Həcc ziyarətinin qaydasına görə, isə Həcc ziyarətinə gedənin evdə bir illik ruzisi olmalı idi, eləcə də qohumunun, qonşusunun dolanışığı yaxşı olmalı idi, yəni ehtiyacı olmamalı idi. Bütün bunlar digər tərəfdən Həccə getmə işini çətinləşdirirdi. Buna görə də, Naxçıvan bölgəsində yoxsulluğa görə Hacıların sayı çox az idi. Sovet dönəmində isə, sovet ərazisindən başqa dövlətlərə, o cümlədən Həcc ziyarətinə getmək qadağan olunmuşdur.

Toplanmış materiallara görə, bölgədə həmin günü doğulan oğlan uşaqlarına Hacı, İsmayıl adları qoyulurdu. Ancaq, böyüyəndə o uşaqları bəzən Qurban deyə çağırardılar.

Böyük iftixar hissi ilə qeyd etmək olar ki, ölkəmiz müstəqillik əldə edəndən sonra, xalqımızın milli bayramlarından olan Novruz bayramı kimi Qurban bayramının da keçirilməsinə böyük imkanlar yarandı. Artıq nəinki yerli şəraitdə qurbankəsmə sərbəst surətdə həyata keçirildi, hətta bu milli bayramlar dövlət səviyyəsində həyata keçirilməyə başlanıldı. İslam dininin müqəddəs dini mərasimlərindən biri də həcdir. Həcc islamiyyətin mərkəzi sayılan Məkkə şəhərində Kəbənin ziyarətinə getmək deməkdir. Məkkə ziyarəti 629-cu ildə gerçəkləşdi.

Həcc mərasimi Qurban bayramı günü, hicri-qəməri tarixin on ikinci ayının onuncu günü qeyd edilirdi. Həcc və Qurban bayramı bir-birini, daha doğrusu, biri digərini tamamlayan ayin idi.

Ziyarətə getmək, müqəddəs yerləri ziyarət etmək xalqımızın tarixində bir adət halını almış və nəsildən-nəslə keçərək dövrümüzə qədər gəlib çatmışdır.

Bu gün dövlət səviyyəsində Həcc ziyarəti təşkil olunur ki, bu ziyarətə gedən bölgələrin əhalisi içərisində inamla və mübaliğəsiz demək olar ki, Naxçıvan bölgəsi aparıcı yerlərdən birini tutur. Naxçıvanda da ordubadlılar daha çoxluq təşkil edir.

Adətən ziyarətə gedib qayıtdıqdan sonra kişilərə "hacı", qadınlara isə "hacıxanım" deyirlər. Adətə görə, ziyarətdən qayıtdıqdan sonra adamlar onun görüşünə gedər, ona hədiyyələr aparardılar.

**Nəticə**. Qurbanvermə adəti qədim dövrdən mövcud olmuş bir adətdir. Demək olar ki, həmən-həmən bütün dinlərdə mövcuddur. Qurbanın müxtəlif növləri vardır. Onlardan ən əsası qanlı və qansız qurbanlardır. Bunların içərisində ölülərə də qurban vermə adəti olduğunu görürük. Bundan əlavə əkinçilik, maldarlıq tanrılarına da qurban verildiyinin şahidi oluruq.

Qədim dövrdə insanlarda qurban verilirdi ki, bu da həmin insan üçün böyük uğur, tanrıya yaxınlaşmaq üçün böyük fürsət idi. Aparılan tədqiqatların nəticəsi olaraq qeyd edə bilərik ki, Naxçıvanda insan qurbanvermə adətinə rast gəlinməsə də bu inancın olmasının böyük ehtimalla üzərində dayanırıq. Qurban verməni̇n digər formaları da Naxçıvanda mövcud olmuş, bir çoxu bu gün də mövcud olmaqdadır.

## ƏDƏBİYYAT

1. Allahmanlı M. Azərbaycanın Qərb bölgəsinin mənəvi mədəniyyətindən: Tarixi-etnoqrafik tədqiqat. Bakı: Nurlan, 2011, 176 s.
2. Azərbaycan etnoqrafiyası: 3 cilddə. I c., Bakı: Şərq-Qərb, 2007, 544 s.
3. Qədirzadə Q. Ailə və məişətlə bağlı adətlər, inamlar, etnogenetik əlaqələr. Bakı: Elm, 2003, 368 s.
4. Qədirzadə T. İslamaqədərki adətlər, inamlar və mərasimlər (Naxçıvan materialları əsasında). Bakı: Nafta-Press, 2006, 120 s.
5. Qocayev Ə. Bayramlar və tarixi günlər. Bakı: Altun kitab, 2006, 152 s.
6. Quluzadə N. Dini ayin-qurbanvermə adətinin mənşəyinə dair // Tarix və onun problemləri, № 1-2, 2009, s. 372-377.
7. Qurani-Kərim / Ərəb dilindən tərcümə edənlər: Z.M.Bünyadov, V.M.Məmmədəliyev. Bakı: Çıraq, 2005, 604 s.
8. Şıxəliyev E. Müasir səlib yürüşlərinin hədəfi: Terrorizm yoxsa İslam?! Naxçıvan: Əcəmi NPB, 2017, 168 s.
9. Vurğun S. Seçilmiş əsərləri: 5 cilddə. III c., Bakı: Şərq-Qərb, 2005, s. 101.
10. XIX-XX əsrin əvvəllərində Şimal-şərqi Azərbaycanın mənəvi mədəniyyətindən. Bakı: Onur print, 2020, 315 s.
11. Ercan H. İslamiyetten önce türklerde kurban kavramı üzerine bir araştırma // Journal of Turkic Civilization Studies, 2023, c./v. 4, № 2, s. 132-145.
12. Kafesoğlu İ. Türk Milli Kültürü. İstanbul: Ötüken Neşriyat, 1998, 248 s.
13. Uyğun A. Bir kurban ritueli olarak kurbanın yakılması ve yağ takdimi // Süleyman Demirel Üniversitesi İlahiyat Fakültesinin dergisi, 2019/2, № 43, s. 148-163.
14. https://islamansiklopedisi.org.tr/kurban

***AMEA Naxçıvan Bölməsi***
***E-mail: aseforucov@yahoo.com.tr***

**Asaf Orujov**

## THE CUSTOM OF SACRIFICE: BLOODY AND BLOODLESS SACRIFICES (based on Nakhchivan materials)

The article examines how and when the custom and tradition of sacrifice emerged, as well as the belief system associated with it. As a result of the study, it was found that there are two types of sacrifices. These are bloody and bloodless sacrifices. It can be said that both forms of sacrifice were found in the Nakhchivan region.

As a result of the research, we see that the custom of sacrificing animals arose long before the emergence of Islam. The ancient Turks made sacrifices to protect themselves from evil, unfriendly spirits and to gain closeness with divine beings. The most common bloody sacrifice was a horse. The custom of sacrificing a horse is common among many peoples of the world. In later times, mainly rams were sacrificed.

Bloodless sacrifices included wine, milk, bread, etc. Nowadays, money received from bloodless sacrifices can be especially noted. In addition, offering food to the spirit of an ancestor in cultures around the world is called a sacrifice.

**Keywords:** *Nakhchivan, charity, sacrifice, horse, bloodless, holiday.*

**Асеф Оруджев**

## ОБЫЧАЙ ЖЕРТВОПРИНОШЕНИЯ: КРОВАВЫЕ И БЕСКРОВНЫЕ ЖЕРТВОПРИНОШЕНИЯ (по материалам Нахчывана)

В статье рассматривается, как и когда возник обычай и традиция жертвоприношения, а также система верований, связанных с ним. В результате исследования выяснено, что существует два типа жертв. Это кровавые и бескровные жертвы. Можно сказать, что обе формы жертвоприношения были обнаружены в Нахчыванском регионе.

В результате исследований мы видим, что обычай принесения в жертву животных возник задолго до возникновения ислама. Древние турки приносили жертвы, чтобы защитить себя от злых, недоброжелательных духов и обрести близость с божественными существами. Кровавой жертвой чаще всего становилась лошадь. Обычай принесения в жертву коня распространен среди многих народов мира. В более поздние времена в жертву приносили в основном баранов.

Бескровные жертвоприношения включали вино, молоко, хлеб и т. д. В наши дни можно особо отметить деньги, полученные от бескровных жертвоприношений. Кроме того, подношение пищи духу предка в культурах по всему миру называется жертвоприношением.

**Ключевые слова:** *Нахчыван, благотворительность, жертвоприношение, конь, бескровный, праздник.*

*(Tarix elmləri doktoru Şirin Bünyadova tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant 25.02.2025**
**Son variant 02.04.2025**